# Psixoaktiv maddələrdən istifadə zamanı yaranan psixoloji asılılıq probleminə elmi yanaşmalar

**Ramin Allahverdiyev**
*Bakı Dövlət Universitetinin dissertantı*
**E-mail:** psixoloq@outlook.com

**Rəyçilər:** psixol.ü.f.d., M. H. Mustafayev,
psixol.ü.f.d., dos. R.V. Cabbarov

**Açar sözlər:** psixoaktiv maddə, narkomaniya, alkoqolizm, konfliktlər
**Ключевые слова:** психоактивные вещества, наркомания, алкоголизм, конфликты
**Key words:** psychoactive substance, narcomania, alcoholism, conflicts

Psixoaktiv maddələrdən asılılıq — hər hansı bir psixoaktiv maddənin insan üçün fizioloji və ya psixoloji tələbat halına gəlməsi, maddəyə qarşı həddən artıq istək yaranması və istifadə etməyə ehtiyac duyması, istifadə dozasının və tezliyinin get-gedə artması, istifadə edilmədiyi zaman kəsilmə simptomlarının meydana çıxması və gündəlik fəaliyyətlərin yerinə yetirilməsinin mümkünsüz hala gəlməsi ilə müşahidə olunur. İnsanın yaşadığı mühitdə psixoaktiv maddə ilə qarşılaşması hər zaman və hər insanda psixoaktiv maddə istifadəsi və ya asılılığına səbəb olmur. Bir çoxları hər hansı maddədən istifadə etdiyi halda sui-istifadə mərhələsinə keçmir, maddədən sui-istifadə edənlərin bəziləri isə asılı hala gəlmirlər. Bu səbəblə psixoaktiv maddə asılılığının etiologiyası ilə bağlı olaraq bir sıra psixoloji yanaşmalar meydana çıxmışdır [1, 34].

Psixodinamik yanaşmalar. Psixodinamik yanaşmanın tərəfdarları qeyd edirlər ki, psixoaktiv maddələrdən sui-istifadə edən və ondan asılı olan insanlar bu cür asılılıq üçün güclü tələbatlara malikdirlər və bu problemin izləri erkən uşaqlıq dövründə tapıla bilər. Bu nəzəriyyənin tərəfdarlarına görə, kiçik yaşlarında valideynləri tərəfindən tələbatları ödənilməyən, qayğı və diqqət göstərilməyən insanların, çox güman ki, maddələrdən digər insanlara nisbətən daha çox asılı olurlar, onlar bu maddələrdə kömək və rahatlıq tapırlar [1, 47].

Klassik psixoanalizin təməlini qoyan Z.Freydə görə, psixoseksual inkişaf dövrlərindən biri olan oral mərhələdə baş verən problemlər asılılığa səbəb olur. Belə insanlarda anaya həddən artıq bağlılıq, pessimizm, emosionallıq, qərarsızlıq kimi hallar müşahidə oluna bilər. İnsan inkişaf etdikcə oral dövrlə bağlı olan obyektlər dəyişilir. Uşaqlıqda təmin olunmayan su, süd və s. irəliləyən yaşlarda alkoqol, siqaret və narkotik maddəyə çevrilir. Beləliklə, təmin edən, həzz verən obyektlər alkoqol, siqaret və narkotik olur.

Alfred Adlerə görə isə, insanın davranışlarını natamamlıq kompleksi yönləndirir. Güclü olmaq, yetərlilik, üstünlük duyğuları insanın inkişafında və davranışlarında mühüm rol oynayır. Anadangəlmə qüsurlar, ciddi təhsil, sosial və iş həyatında baş verən uğursuzluqlar, əks cins ilə əlaqədə yaşanan çətinliklər böyük bir xaos meydana gətirir. Bu mürəkkəbliyi həll edə bilməyən və bu duyğularla mübarizə apara bilməyənlər həyatlarındakı çatışmazlıqları siqaret, spirtli içki, narkotiklərlə əvəz edir.

İnsanın həyat boyu ana bətnindəki rahatlığı, güvəni axtardığı fikrini irəli sürən Otto Rank qeyd edirdi ki, böyük bir narahatlıq yaşayan insanlar bu hissini boğmaq, ana bətnindəki olan dövrlərə dönərək rahatlıq və xoşbəxtlik tapmaq məqsədi ilə narkotik maddələrə yönəlir.

Narkotik maddə istifadəsi ilə xarici mühitdən təcrid olunan şəxs özünü ana bətnindəki kimi təhlükəsizlikdə hiss edir.

İnsanın fərdi inkişafında getdikcə artan təcrid olma və tənhalıq hiss yaranır. Özünü cəmiyyətə qəbul etdirə bilməyən və yalnızlaşan insanlarda narahatlıqlarını azaltmaq üçün bir sıra müdafiə mexanizmləri müşahidə olunur. Anadan təcrid olma, cəmiyyət tərəfindən tərk edilmə, sevgisizlik qarşısında insanın keçirdiyi gərginlik onu maddə istifadəsinə sövq edir və həmin insan yalnız bu şəkildə problemlərdən qurtulub rahatlıq tapa bilir [2,37].

Maddə istifadəsi davamlı hal aldıqda asılılıqdan danışmaq olar. Narkotik maddələr həyatın çətinliklərindən insanı qoruya, çəkilən iztirabları dayandıra, məyusluq kimi hissləri basdıra və bu yolla həzz yarada bilir.

Son psixodinamik yanaşmalar isə maddə istifadəsi ilə depressiya arasındakı əlaqə üzərində qurulmuşdur və bu yanaşmalarda maddə istifadəsini pozulmuş eqo funksiyalarının əks olunması kimi qəbul edirlər. Buna görə də maddə istifadəsini oral mərhələ ilə əlaqələndirmək əvəzinə, onu daha çox adaptasiya və qorunma ilə bağlı bir davranış kimi görürlər. Psixoaktiv maddə aqressiya, utanc kimi emosiyalara qarşı müdafiəni qüvvətləndirə bildiyi üçün reqressiv vəziyyət maddə istifadəsi yolu ilə tərsinə çevrilə bilir və buna görə də insan reqressiyadan qurtulub mühitə adaptasiya olunur. Bəzi müasir psixoanalitiklər (Kernberg, 1975; Khantzian, 1981; Levin, 1987) psixoaktiv maddələrdən asılılığı belə təsvir etmişlər: 1) zəif eqo ilə mübarizə aparmaq istəyi; 2) pataloji narsissizm; 3) yetərsizliklə mübarizə aparmaq cəhdi. Bu yanaşmaya görə, psixoaktiv maddələr insanın çatışmazlıqlarının kompensasiya olunmasına kömək edir. Kaufman (1985), Peele (1998) psixoaktiv maddə istifadəsini və asılılığı narsissistlik və antisosial şəxsiyyət pozuntuları və psixoz kimi problemləri öz-özünə aradan qaldırmaq cəhdi, özü ilə bağlı narahatlıqları aradan qaldırma, qəbul olunmayacaq aqressiya və düşmənlik hisslərini yox etmək istəyi, gücsüzlüyünü kompensasiya etmək, stresslə mübarizə aparmaq yolu kimi izah etmişlər.

Narkotik maddədən istifadə edənlərin uşaqlıq dövrü alkoqoldan istifadə edənlərə nisbətən daha nizamsız keçmişdir. Bir sıra tədqiqatlar şəxsiyyət pozuntuları ilə psixoaktiv maddələrdən psixoloji asılılığın inkişafı arasında əlaqə olduğunu göstərmişdir.

Psixodinamik yanaşmaya əsasən, yekun olaraq qeyd etmək olar ki, psixoseksual inkişaf dövrlərində ödənilməmiş sevgi, qayğı, güvən kimi tələbatlar, böyük yaş dövrlərində yaşanılan problemlərin basdırıla bilməsi və bu cür mənfi hisslərin öhdəsindən gəlmək məqsədilə insan psixoaktiv maddələrə yönəlir [3,42].

Psixososial yanaşmalar. Bu yanaşmanın tərəfdarları, çətin sosial-iqtisadi şəraitdə yaşayan insanların maddədən istifadə edə biləcəyi və onlara asılılıq göstərə biləcəyini düşünürlər. Həqiqətən də, işsizliyin yüksək səviyyədə olduğu bölgələrdə alkoqolizmdən əziyyət çəkən insanların sayı daha da yüksəkdir. Buna müvafiq olaraq, cəmiyyətin aşağı təbəqələri arasında psixoaktiv maddələrdən istifadə edən insanların sayı digər sosial təbəqələrdən daha yüksəkdir. Bununla yanaşı, tədqiqatçılar valideynləri və həmyaşıdları arasında kiminsə psixoaktiv maddə istifadəçisi olduğu şəraitdə, eləcə də çətin sosial-iqtisadi şəraitdə yaşayan yeniyetmə və gənclər arasında asılılığın daha çox olduğunu təsdiqləyirlər.

Maddə asılılığının sosio-mədəni faktorlarla əlaqəli olması müxtəlif mənşəli və müxtəlif mədəniyyətlərə malik insanların psixoaktiv maddələrdən istifadəsini müqayisə edən geniş tədqiqatlar vasitəsilə təsdiq edilmiş və geniş şəkildə izah edilmişdir. Göründüyü kimi, bu nəzəriyyə başda ailə olmaqla, cəmiyyət üzərində qurulmuşdur. Lakin, bəziləri bu yanaşmaya etiraz etmişlər. Çünki eyni sosial şəraitdə və eyni sosial çətinliklər içində yaşayan uşaqların hamısında asılılıq müşahidə olunmur.

Bu isə, başqa amillərin də təsirli olduğu fikrini yaradır. Wong, Tang, Schwarzerin (1997) min nəfər yeniyetmə üzərində apardıqları tədqiqatlarda qrup təzyiqinin yeniyetmələrin alkoqol, siqaret və ya narkotik maddələrdən istifadə etməsinə böyük təsiri olduğunu müəyyən etmişlər. Gottfredson (1987) altı yüz ayrı-ayrı məktəblərdə şagirdlərin düzgün olmayan davranışlarını müşahidə etmiş və nəzarət və idarəetmədə problemi olan, intizamı düzgün qurmayan müəllimlərin olduğu qayda-qanunların pozulduğu, əməkdaşlığın lazımi səviyyədə olmadığı məktəblərdə müxtəlif maddələrdən istifadə edən və başqa zərərli davranışlara meyilli şagirdlərin digər məktəblərə münasibətdə daha çox olduğunu müəyyən etmişdir [4, 23].

Deviant davranışların alkoqol istifadəsi ilə əlaqəli olduğunu bildirən tədqiqatçılar istifadə olunan alkoqolun miqdarı ilə deviant davranışlar – şiddət, təcavüz, cinayət və s. arasında əlaqənin mövcud olduğunu irəli sürürlər.

Antisosial şəxsiyyət pozuntusunun əlamətlərindən biri olan şiddətin maddələrdən psixoloji asılılıq olmaqla əlaqəsini öyrənən Regier və dostları (1990) Amerikanın beş əyalətindəki 20.291 nəfər üzərində apardıqları tədqiqat nəticəsində antisosial şəxsiyyət pozuntusunun xüsusiyyətlərini daşıyan insanların psixoaktiv maddələrdən asılı olma ehtimalının şəxsiyyət pozuntusu olmayan insanlardan 21 dəfə yüksək olduğunu müəyyənləşdirmişdir. Həmçinin, Corte də (2001) psixoaktiv maddə asılılığı olan 21-31 yaş arasındakı qadın və kişilər üzərində tədqiqat aparmışdır. O, antisosial şəxsiyyət xüsusiyyətlərini daşıyan maddə aludəçilərinin müalicəsinin də çətin olduğunu, əsasən, müalicəni tam bitirmədən yarıda qoyduqlarını açıqlamışdır [5,69].

Sevgi və təhlükəsizlik ehtiyacı alkoqol aludəçisinin sosial həyatda adaptasiya ilə bağlı ciddi problemlər yaşamasına səbəb olur. Bu cür problemlər sırasında o, özünü düzgün ifadə edə bilməməyi, maneələr qarşısında sərt reaksiya verməyi, şəxsiyyətlərarası münasibətlərdə hədsiz həssaslığı, uyğunsuzluğu göstərir. Alkoqol aludəçilərinin müalicəsi gedişində cəmiyyətə uyğunlaşmağı bacaran, hiss və düşüncələrini rahat ifadə edə bilən, özgüvəni yüksək olan insanların alkoqolsuz həyata daha tez alışdığı müşahidə olunur. Corbin və dostları (1996) alkoqol aludəçilərinin fərdi xüsusiyyətləri ilə bağlı apardıqları tədqiqatda özünü aşağı qiymətləndirən, özgüvəni əksik olan aludəçilərin sosial uyğunlaşma səviyyəsinin də aşağı olduğunu müəyyən etmişdir [5,120].

Schulenberg və Maggs (2002) ailəsi ilə problemlər yaşayan və özgüvəni aşağı olan gənclərin dostlarının təzyiqi altında zərərli vərdişlərə və davranışlara daha da meyilli olduqlarını qeyd edirdilər.

Steffenhagen və Burns (1987) özünü olduğu kimi qəbul etməyi bacarmayan, maneələrlə mübarizə etməkdən qaçan, üzərinə məsuliyyət götürə bilməyən insanlarda asılılığa daha çox rast gəlindiyi fikrini irəli sürmüşdür. Bütün bunlarla yanaşı, maddə istifadəçilərinin keçmiş həyatlarını analiz etdikdə, onların ailələrinin təməl ehtiyaclarına qarşı empatiya qura bilmədiklərini müəyyən etmişlər.

Glashow və Greenberg (2004) gənclər üzərində apardıqları tədqiqatlarda mənlik şüurunun psixososial inkişaf üzərində hansı təsirlərinin olduğunu öyrənmişlər. Bu tədqiqatların sonunda əldə etdikləri nəticələrə görə, mənlik şüuru yüksək inkişaf etmiş gənclərdə alkoqol və narkotik maddə asılılığına daha az rast gəlinir. Tədqiqatçılar ailələrinin nəzarətinin və dəstəyinin gənclərin mənlik şüurunun formalaşması ilə əlaqəli olduğunu və onların alkoqol, siqaret və narkotik maddələrlə bağlı fikirlərinə də təsir göstərdiyini müşahidə etmişlər. Vaillant (1984) tədqiqatlarından əldə etdiyi nəticələr əsasında, dəyərsizlik və yetərsizlik hissləri ilə yanaşı mənlik şüuru tam formalaşmamış, asılılıqlarını inkar edən, məsuliyyətlərini

qəbul etməkdə çətinlik çəkən psixoaktiv maddə istifadəçilərinin ailə münasibətlərində məsafəli olduğunu bildirmişdir [6,72].

Davranış yanaşmaları. Psixoaktiv maddələrdən asılılığın səbəblərini açıqlamağa yönəlmiş bəzi bihevioral modellər fiziki asılılıq simptomlarından daha çox "maddə axtarma davranışı" (substance seeking behavior) üzərində dayanmışlar. Bunun səbəbi isə hər növ maddənin fizioloji asılılıq yaratmamasıdır. Onlar fizioloji asılılıq yaratmadığı halda "maddə axtarma davranışı"nı ortaya çıxaran dörd böyük prinsip üzərində dayanmışlar.

Birinci və ikinci prinsip bəzi maddələrin müsbət və mənfi möhkəmlətmə kimi təsir göstərməsidir. Psixoaktiv maddələrin çoxu ilkin istifadədən dərhal sonra müsbət təcrübə, istifadə məqsədlərinə uyğun şəkildə təsir (məsələn, eyforiya və ya təşvişin azalması) göstərir və beləliklə, bu maddələr daha sonrakı "maddə axtarma davranışı" üçün müsbət möhkəmlətmə rolu oynayır və fərdin psixoaktiv maddə istifadəsinə yol açan davranışları artır. Məsələn, alkoqolun xüsusiyyətləri arasında stressin azaldıcı və rahatladıcı təsiri vardır və bu təsirlər alkoqol istifadəsinin davam etdirilməsi üçün səbəbdir. Yəni, alkoqoldan istifadə həyəcan keçirən insanın getdiyi yerdə özünü daha rahat hiss etməsinə kömək edir. Artıq bu insan alkoqolun gərginliyi azaldan və insanı rahat hiss etdirən formada göstərdiyi təsiri müsbət möhkəmlətmə olaraq görməyə başlayır. Rahatlıq hissi ilə bərabər, daha yaxşı vaxt keçirmək kimi təcrübələr artdıqca bu möhkəmlətmə daha da güclənir. Belə olan halda, alkoqol istifadəsi problemi həll etmə mexanizmi, müsbət nəticələr verən davranış kimi qavranılır.

Bəzi maddələr isə meydana çıxan əks təsirlər səbəbilə "maddə axtarma davranışı"nı azaldan təsirə malikdir. Bunlar arasında günahkarlıq hissini, vəzifələrini yerinə yetirə bilməməyi və s. misal göstərmək olar. Bu halda isə alkoqol istifadəsi mənfi möhkəmlətmə yaradır. Üçüncü prinsip fərdin istifadə etdiyi maddəni digər maddələrdən fərqli formada qavramasıdır. Dördüncü prinsip isə bütün maddə axtarma davranışlarının maddə istifadəsinin ortaya çıxardığı fərqli bir yaşantı və təcrübə ilə bağlı yaranan "hərəkətəgətirici və yönləndirici təsirlər"lə (cue) birlikdə müşayiət olunmasıdır [7, 67].

Fiziki asılılığı olan insanlarda meydana çıxan kəsilmə sindromu da "maddə axtarma davranışı"nı gözlənən nəticə halına gətirir və bu insanlar kəsilmə sindromunun təsirlərindən maddələrdən istifadə edərək qurtulmağa çalışırlar. Lakin, kəsilmə simptomlarının aradan qaldırılmasından müəyyən aylar sonra istifadə etdiyi maddə üçün istək yaranması, maddə axtarma davranışının sadəcə kəsilmə sindromu ilə izah edilə bilməyəcəyini göstərir. Psixoaktiv maddə istifadəsi ilə əvvəlcədən əlaqəli olan və aylar sonra yenidən ortaya çıxa bilən psixoloji və sosial qıcıqlandırıcılar məhz kəsilmə sindromu kimi maddə istifadəsi üçün çox şiddətli arzu və istək yarada bilər. Bu dövrdə maddədən sadəcə bir dəfə istifadə olunması asılılığın çox sürətlə və tam şəkildə əvvəlki kimi ortaya çıxmasına yol açır ki, buna "əvvəlki vəziyyətə qayıtma" (reinstatement effect) deyilir [7, 80].

Genetik yanaşmalar. Alkoqoldan sui-istafadə edənlərin etiologiyasında genetik faktorların xüsusi bir rol oynadığı, əkizlər, övlad edilmiş uşaqlar və bir-birindən ayrı şəraitdə böyüdülmüş bacı-qardaşlar üzərində aparılan təcrübələrlə sübut edilmişdir. Ancaq alkoqoldan savayı digər maddələrdən sui-istifadə və ya bu maddələrdən yaranan asılılıqlar üzərində genetik faktorların rolu ilə bağlı məlumatlar daha azdır. Bununla birlikdə, son vaxtlar, xüsusilə RFLP (restriction fragment length polymorphism) texnikası ilə edilən bəzi çalışmalarda, alkoqoldan savayı maddə asılılığı və onlardan sui-istifadə edənlərin də genetik bir təməli olduğu göstərilmişdir [7,99].

Neyrokimyəvi yanaşmalar. Alkoqoldan savayı sui-istifadə olunan maddələrin çoxu üçün

bu maddələrin təsirlərini təmin edən xüsusi neyrotransmitterlər və neyrotransmitter reseptorları təyin edilmişdir. Məsələn, opiadlar, xüsusi "opiad reseptorları" üzərinə təsir edirlər və bu səbəbdən çox az endogen opiad fəaliyyət və ya daha çox endogen opiad antogenist fəaliyyətinə sahib olan bir şəxsdə opiad asılılığının inkişaf riski daha da artıqdır.

Bir insan, hətta tamamilə normal endogen reseptor funksiyasına və neyrotransmitter fokuslanmasına sahib olsa belə, sui-istifadə edilən bir maddənin uzun zaman istifadə olunması, gedərək beyindəki mövcud reseptor sistemlərini dəyişdirir və beyində bu alışılan maddənin də içərisində olduğu yeni bir tarazlıq durumu (homeostasis) ortaya çıxar və nəticədə beyin bu yeni tarazlıq vəziyyətini davam etdirmək üçün bu xarici maddənin (exogenous substance) varlığına ehtiyac hiss edər. Bir maddəyə qarşı, Mərkəzi Sinir Sistemində (MSS) dözümlülük yaranması mexanizmini reseptor səviyyəsindəki bu növ dəyişiklərlə açıqlamaq mümkündür [8, 58].

Necə ki, "Dözümlülük" və "Ehtiyac" fenomenlərinin beyindəki bu cür neyro-adaptiv dəyişikliklər nəticəsində yarandığı və bu fenomenlərin, maddə asılılığı zamanı ortaya çıxan dərin farmakoloji təsirlərə qarşı inkişaf etdirilən homeostatik proseslərin bir parçası olduğu müxtəlif şəkillərdə göstərilmişdir. Məsələn, alkoqol, barbitüratlar və benzodiazepinlər kimi, sıxıntı keçirmə və yuxu gətirmə xüsusiyyətləri olan və asılılıq yarada bilən maddələrin dərin farmakoloji təsirlərindən biri də beyindəki GABA (Gama Amino Butirik Asid) funksiyalarını artırmalarıdır. Bu maddələr qəbul edildikcə, beyindəki GABA və benzodiazepin reseptor həssaslığında, GABA neyrotransmitterini asanlaşdıraraq bu maddələrin təsirlərini tarazlamağa və beləliklə də, yeni vəziyyətə adaptasiya olmağa yönəlmiş dəyişikliklər baş verir. Məhz bu vəziyyət, fərdin eyni farmakoloji təsiri yaratmaq üçün getdikcə daha çox miqdarda maddə qəbul etməsi ilə nəticələnən dözümlülük fenomeninin inkişafı deməkdir [8, 72].

Əgər, qəbul edilən maddə birdən-birə dayandırılarsa, reseptor funksiyalarında davam etməkdə olan adaptiv dəyişikliklər, GABA fəaliyyətində ani bir yıxılmaya səbəb ola bilər ki, bu vəziyyət də ehtiyac (withdrawal) fenomeninin ortaya çıxması deməkdir. Təşviş pozuntusu ilə, dərman asılılığı ilə bağlı ehtiyac sindromlarında görülən təşviş, yuxusuzluq və epilepsiya tutmaları kimi klinik göstəricilərin bir çoxu beyində GABA funksiyalarının azalması ilə izah oluna bilər. Bu da öz növbəsində anksiyolotiklər, hipnotiklər və dözümlülük" (cross-tolerance), alkoqol ehtiyacı sindromlarının benzodiazepinlər ilə müalicə edilə bilməsi kimi imkanlar yaradır. Digər maddələrin sui-istifadəsində görülən dözümlülük və ehtiyac fenomenləri də oxşar adaptiv dəyişikliklərlə müşayiət olunur. Məsələn, opiadların dərin istifadəsi beyin sapındakı noradrenalin hüceyrə gövdələrindəki çulğalaşmanı azaldır və bu maddələrin daimi istifadəsi ilə hər dəfə meydana çıxan bu təsir, çox güman ki, opiad reseptorlarının həssaslığında adaptiv dəyişikliklərə səbəb olaraq "dözümlülü"yün inkişafına yol açar. Əgər opiadlar qəfildən kəsilərsə, noradrenalin neyronlarının kəskinləşməsində və terminal bölgələrdən noradrenalin axınında ani bir artım olur. Noradrenerji fəaliyyətin artması isə tərləmə, təzyiqin yüksəlməsi, təşviş pozuntuları kimi dərin opiad ehtiyac sindromlarında görülən klinik göstəricilərin meydana çıxmasına səbəb olur. Bu biliklərdən hərəkətlə, bir noradrenalin oto-reseptor agonisti olan "Clonidine" opiad ehtiyac sindromlarının müalicəsində istifadə olunur [8,132].

**Məqalənin aktuallığı.** Müasir dövrdə psixoaktiv maddələrin istifadəsi qlobal xarakter daşıdığından məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə respublikamızda ilk dəfə olaraq psixoaktiv maddə istifadəçilərində yaranan psixoloji asılılıq problemi araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də praktik psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. American Psychiatric Association: Diagnostic and Statistical Manual of Mental Disorders, Fourth Edition, Text Revision, American Psychiatric Association, Washington, 2000.
2. Ewing JA: Detecting Alcoholism: The CAGE Questionnaire. JAMA 252: 1905-1907, 1984.
3. Galanter, M.(Chairperson): Psychoactive Substance Use Disorders (Alcohol), in Treatments of Psychiatric Disorders: A Task Force Report of the American Psychiatric Association, Volume 2, American Psychiatric Association, Washington, 1989.
4. Ghodse H: Drugs and Addictive Behaviour. A Guide to Treatment. Third ed. Cambridge University Pres, Cambridge, 2005.
5. Jaffe J.H, Anthony J.C: Substance-Related Disorders: Introduction and Overview. In: Sadock BJ, Sadock VA, eds. Kaplan & Sadock's Comprehensive
6. Kleber, H.D. (Chairperson): Psychoactive Substance Use Disorders (Not Alcohol), in Treatments of Psychiatric Disorders: A Task Force Report of the American Psychiatric Association, Volüm 2, American Psychiatric Association, Washington, 1989.
7. World Health Organization.: The ICD-10 Clasification of Mental and Behavioural Disorders, Clinical description and diagnostic guidelines, World Health Organization, Geneva, 1992.
8. World Health Organization.: The ICD-10 Clasification of Mental and Behavioural Disorders, Clinical description and diagnostic guidelines, World Health Organization, Geneva, 1992.

**Р. Аллахвердиев**

## Научные подходы к проблеме психологической целостности при использовании психоактивных веществ.

## Резюме

Зависимость от психоактивных веществ является комплексной проблемой, вызывающей нарушения в различных сферах жизнедеятельности человека. Биологические последствия связаны с высоким уровнем смертности в результате употребления психоактивных веществ, коморбидностью со многими психическими и соматическими расстройствами, инвалидизацией. Наблюдаются различные психические, эмоциональные, личностные изменения больных в результате употребления психоактивных веществ. Социальные последствия сопряжены с высокой криминогенной активностью химиически зависимых лиц, их низкой социальной продуктивностью, нарушением семейных отношений. К духовному аспекту заболевания относится искажение морально-нравственных ценностей, отсутствие целей и смысла жизни В связи с этим использованием био-психо-социо-духовной парадигмы

является необходимым условием эффективного лечения и реабилитации лиц, зависимых от психоактивных веществ.

**R. Allahverdiyev**

## Scientific approaches to the problem of psychological integrity when using psychoactive substances.

### Summary

Dependence on psychoactive substances is a complex problem causing disturbances in various spheres of human life. The biological consequences are associated with a high mortality rate due to the use of psychoactive substances, co morbidity with many mental and somatic disorders, and disability. There are various mental, emotional, personal changes in patients as a result of the use of psychoactive substances. Social consequences are associated with high criminogenic activity of chemically dependent persons, their low social productivity, violation of family relations. The spiritual aspect of the disease is the distortion of moral values, the absence of goals and the meaning of life. In this regard, the use of the bio-psycho-socio-spiritual paradigm is a necessary condition for the effective treatment and rehabilitation of people dependent on psychoactive substances.

**Redaksiyaya daxil olub:** 31.01.2019